Milli Təhlükəsizlik Siyasəti nədir?

Dövlətlər nə üçün milli təhlükəsizlik siyasətinə ehtiyac duyurlar?

Milli Təhlükəsizlik üçün hüquqi əsas nədir?

MTS-in quruluşu necədir?

MTS necə hazırlanır?

MTS üçün əsas problemlər hansılardır?

Səmərəli milli təhlükəsizlik siyasətinin formalaşmasında hansı başlıca problemlər var?

MTS-i necə tətbiq etməli?

Nəticə: Səmərəli və demokratik MTS prinsipləri

Əlaqədar məsələlər

Əlavə Məlumat

DCAF Yaddaş kitabı buraxılışı mütəxəssislərə
dövlətin təhlükəsizlik sferası və islahatlara
aid müxtəlif məsələlər barədə dəqiq məlumatlar verir.

## Milli təhlükəsizlik siyasəti nədir?

.Milli təhlükəsizlik siyasəti (MTS) ölkənin dövlət və vətəndaşlar üçün təhlükəsizliyi necə təmin etdiyini təsvir edən çərçivədir və çox vaxt vahid sənəd şəklində Bu yaddaş kitabının məqsədlərinə nail olmaq üçün MTS belə bir vahid sənədə əsaslanacaq. Bu sənəd plan, strategiya, konsepsiya və ya doktrina da adlandırıla bilər. MTS-in millətin həyati maraqlarını müəyyən etməkdə ,mövcud və gələcək təhlükələrin və halların qarşısını almaq üçün direktivlər hazırlamaqda müasir və perspektiv rolu var. Adətən, MTSlər hərbi doktrina, ölkənin təhlükəsizlik strategiyası və s kimi milli təhlükəsizliyin ayrı-ayrı orqanları və məsələləri ilə məşğul olan yardımçı təhlükəsizlik siyasətlərindən üstün olur. O həm də əhatə etdiyi məsələlərin həcminə görə, həm daxili həm xarici təhlükələri özündə ehtiva etdiyindən digər siyasi kurslardan fərqlənir.
Nəhayət çox vacib hesab olunan maraqların həyata keçirilməsi üçün milli təhlükəsizlik aktorlarının fəaliyyətini birləşdirməyə və razılaşdırmağa çalışır. Britaniya, Fransa, Çin kimi bəzi dövlətlərin vahid MTS sənədi yoxdur, onlar ancaq müdafiə siyasətinə və ya müdafiə siyasəti ilə bağlı rəsmi sənədlərə əsaslanırlar. Digər dövlətlər öz müdafiə

siyasətlərini açıqlamırlar və ya təhlükəsizliyə və ya müdafiəyə dair müfəssəl yazılı təlimatları yoxdur.

## Dövlətlər nə üçün MTS-ə ehtiyac duyurlar?

Vahid və təfərrüatlı MTS-ə sahib olmağın beş əsas səbəbi var:

• Dövlətin bütün təhlükələrin qarşısını müfəssəl qaydada almasını təmin etmək üçün
• bütün təhlükəsizlik aktorlarının fəaliyyətini yaxşılaşdırmaqla təhlükəsizlik sferasının effektivliyinin artırılması
•Siyasətin tətbiqinə nəzarət edir
• daxili konsensus yaratmaq
• regional və beynəlxalq inam və əməkdaşlığı möhkəmləndirmək

İlkin olaraq, müfəssəl bir quruluş olmaq üçün MTS-lər milli təhlükəsizliyə olan hədələrin ətraflı tədqiqini tələb edir. Daxili və xarici təhlükələrə uzun müddət ayrı-ayrılıqda yanaşılmışdır, lakin təhlükəsizlik siyasəti əsasən yerli və beynəlxalq mühitin müfəssəl qiymətləndirilməsini özündə ehtiva edir. Belə kurs müəyyən edilərkən təhlükəsizlik üçün əhəmiyyət kəsb edən bütün dövlət aktorlarının, xüsusən də beynəlxalq və qeyri–dövlət aktorlarının təklifləri nəzərə alınmalıdır
İkincisi, MTS-lər təhlükəsizlik sferası aktorlarının artan sayının, o cümlədən milli səviyyədə yerli hökumətin, işgüzar icmanın (misal üçün, həyati vacib infrastrukturun müdafiəsində), müxtəlif vətəndaş cəmiyyəti təsisatlarının, həmçinin regional və beynəlxalq institutların iştirakını mövqelərini razılaşdırmağa kömək edə bilər. Müxtəlif mənbələrin təkliflərini özündə cəmləşdirən siyasətin mərkəzləşdirilmiş qaydada müəyyən edilməsi təhlükəsizliyin vahid şəkildə dərkinə yol aça bilər.
Üçüncüsü, MTS-lər milli təhlükəsizliklə məşğul olan müxtəlif aktorlara siyasi yol göstərir. MTS-lər operativ qərarlarla milli siyasətin uzunmüddətli və qısamüddətli məqsədlərinin müqayisəsi üçün bazanı təmin edir. Mərkəzləşdirmə prosesi isə hazırlama və tətbiqetmə prosesində uyğunsuzluqları, kəsirləri və çatışmazlıqları aradan qaldırmağa yardım üçün resurslardan optimal istifadəyə imkan verir
Dördüncüsü, MTS-lər peşəkarlar, şöbələr və partiya sıraları arasında müzakirələri və əməkdaşlığı dərinləşdirmək yolu ilə təhlükəsizlik siyasətinin geniş mənimsənilməsini təmin edir. Bu dialoq əsas milli dəyərlər və maraqlar və bu dəyərlərə və maraqlara olan təhlükələrin diapazonu barədə razılığa gəlməyə kömək edə bilər.
Beşincisi, MTS-lər regional və beynəlxalq səviyyədə inam yaradan alətlərdir.
Ardıcıl və şəffaf siyasət dövlətin təhlükəsizliklə bağlı narahatlıqlarını beynəlxalq ictimaiyyətə çatdıraraq bununla da beynəlxalq razılığı və əməkdaşlığı asanlaşdırır.

## Milli Təhlükəsizlik üçün hüquqi əsas nədir?

Bəzən MTS xüsusi qanunvericiliklə qəbul edilir. Misal üçün ABŞ hər il prezidentdən konqresə milli təhlükəsizlik strategiyasını təqdim etməyi tələb edir, baxmayaraq ki, təcrübədə bu hər il yerinə yetirilmir. Latviyada parlament hər il kabinet tərəfindən yazılmış və Milli Təhlükəsizlik Şurası tərəfindən təsdiq olunmuş MTS-i təsdiq etməlidir.

Əks halda icraedici hakimiyyət özü milli təhlükəsizlik strategiyasını hazırlamalı olur. Misal üçün, Rusiya Federasiyasında  Milli Təhlükəsizlik Şurasının hazırladığı təhlükəsizlik strategiyası icraedici orqanlar tərəfindən təsdiq olunur. Avstriyada parlament 2001-ci ildə səlahiyyəti mütləq vahid MTS yaratmaq deyil (baxmayaraq ki, bu artıq edilib) , milli təhlükəsizlik siyasətinə nəzarət etmək olan Milli Təhlükəsizlik Şurası yaradıb.

## MTS-in quruluşu necədir?

Baxmayaraq ki, müxtəlif ölkələrdəki MTS-lər bir-birindən fərqlənir, onlar ən azı üç əsas məsələni əhatə edən vahid sənəd olmalıdır: beynəlxalq sistemdə dövlətin rolu, dərk olunmuş yerli və beynəlxalq problemlər və hallar, və bu problemlərə və hallara qarşı aktorların həyata keçirməli olduğu öhdəliklər.

Birinci məsələ dövlətin beynəlxalq sistemə baxışlarını və bu sistemdə oynadığı rolu araşdırır. Bu dövlətin maraqlarını və dəyərlərini, dövlət strukturlarını və qərar qəbul etmə prosesini nəzərə almağı tələb edir. Bu adətən dövlətin və cəmiyyətin gələcəkdə harada olacağı barədə proqnozların verilməsi ilə  ən yüksək həddə çatır

İkinci məsələ cari və gələcək təhlükələrin və halların qiymətləndirilməsidir. Nəzəriyyədə bu həm daxili ,həm də xarici təhlükələri əhatə etməlidir, baxmayaraq ki təcrübədə bir çox MTS yalnız xarici təhlükələrə və hallara diqqət yetirir. Həmçinin beynəlxalq təhlükəsizlik iştirakçılarının  siyasi baxışlarını və mövqelərini  əks etdirdiyindən bu əməkdaşlığın yaranmasına imkan yaradır.
Üçüncü məsələ hər bir icraçı aktorun məsuliyyət dairəsini əks etdirir. Bura təhlükəsizlik fəaliyyəti növü (vətənin müdafiəsi, kəşfiyyat, və s) və aktorların mandatına daxil olan bütün sahələr daxildir. Çünki bəzi ölkələrdə milli təhlükəsizlik anlayışının təhlükəsizlik qüvvələrinin daxili işlərə cəlb olunması ilə tarixi vəhdəti olduğundan, bu mübahisəli ola bilər. Aktorların fəaliyyəti adətən ətraflı təsvir edilir, amma hərbi qüvvələrin təşkilati quruluşu kimi gizli məlumatlar adətən verilmir və ya yardımçı sənədlərə daxil edilir

## MTS necə  hazırlanır?

MTS-in hazırlanması təşəbbüs, layihələşdirmə, razılaşdırma və təsdiqetmədən ibarət standart strateji dövriyyədən keçir.

**İdeya** demək olar ki, həmişə icraedici orqanlar tərəfindən irəli sürülür. Bəzi hallarda qanunverici orqan və ya təhlükəsizlik məsələləri üzrə daimi komitələr MTS-in ideya verə bilər. Proses illik və ya müntəzəm və ya İsveçrədəki kimi yalnız təsadüfi xarakterli ola bilər.

**Layihələşdirici** orqan adətən icraedici orqan tərəfindən müəyyən olunur, bu daimi komitə və ya mövcud orqan və ya ad hoc ola bilər. Əksər hallarda , bu prezidentin məsləhəti ilə yaradılan xüsusi təhlükəsizlik şurası olur(ABŞ, Avstriya, Rusiya Federasiyası), digər halda isə bu kabinet (Latviya və Kanada) və ya ad hoc komitə ola bilər. Bu komitə, adətən müdafiə nazirlikləri , kəşfiyyat orqanları, silahlı qüvvələrin

nümayəndələri, qanunverici orqanların komitələri və çox vaxt ənənəvi olaraq təhlükəsizlik sferasına aidiyyəti olmayan kənd təsərrüfatı, nəqliyyat, səhiyyə, immiqrasiya kimi nazirliklərlə və maliyyə idarəçiliyi orqanları ilə geniş məsləhətləşmələr aparır. Komitə siyasi partiyalar, mətbuat, vətəndaş cəmiyyəti və elmi icma kimi qeyri-dövlət aktorları ilə də məsləhətləşmələr apara bilər. Bəzən bu qruplar yalnız informasiya axını verə bilər, ancaq komitə onların təhlükəsizlik sferasına fərqli baxışlarını sintezləşdirərək müfəssəl bir yanaşmaya çevirməyə çalışır. MTS-in hazırlanmasında geniş miqyaslı iştirak strategiyanın ətraflı mənimsənilməsini təmin edən əsasdır ki, onun tətbiqini asanlaşdırır. İsveçrədə əs sonuncu MTS-in hazırlanmasına iki mərhələli yanaşma tətbiq olundu: birincisi, MTS-ə dair təklifləri özündə ehtiva edən, hökumətə təqdim olunan, hüquqi qüvvəsi olmayan hesabatın hazırlandığı geniş və sosial –siyasi xarakterli məsləhətləşmələr aparıldı ; ikincisi, hökumət orqanı öz hesabatını hazırlayarkən bu sənədi nəzərə alıb layihələşdirmə apardı.

**Razılaşdırma** layihələşdirmə zamanı təhlükəsizlik sferasına daxil olan müxtəlif aktorların tövhələrinin nəzərə alınması və bu proses zamanı gizli və ya açıq yolla və ya hər ikisindən istifadə etməklə ilkin layihələrin onlar arasında dövriyyəsi vasitəsilə həyata keçirilir.

Qanunverici və ya icraedici orqanın **təsdiqi** tələb olunmaya bilər. Əgər xülasə icraedici orqan tərəfindən verilibsə, onun üçün qanunverici orqanın təsdiqinin tələb olunması ehtimalı azdır, lakin o, təsdiqi doğrulamaq üçün MTS-i qanunverici hakimiyyət orqanlarına təqdim edə bilər .Bəzi parlamentlər, İsveçrədəki kimi, MTS-ə yalnız diqqət yetirə bilər , digərləri isə onun məğzinə əhəmiyyətli dəyişikliklər edə bilər.

## MTS üçün əsas problemlər nədir?

İlkin olaraq, MTS-lər **şəffaflıq və gizlilik** arasındakı tarazlığı qorumalıdırlar. Bəzi dövlətlər qeyri müəyyən dildən istifadə etməklə bu problemdən yayınmağa çalışırlar.(bu həm də strateji qeyri-müəyyənlik adlanır) ,amma bu sənədin effektivliyini azalda bilər. Digərlərində isə MTS-in həm açıq, həm də gizli variantı var. Əgər MTS ictimai müzakirə mövzusudursa, onun mahiyyəti əsasən ümumi milli təhlükəsizlik məqsədlərini əks etdirəcək və onun tətbiqi yardımçı doktrinaların və ya digər planlaşdırılmış mexanizmlərin öhdəsinə buraxılacaqdır.

İkincisi, bəziləri hərəkət azadlığının qorunması ehtiyacı ilə rəhbərlərin hərəkətlərinə qoyulmuş məhdudiyyətlər arasında ziddiyyət olduğunu dərk edirlər. Bu səbəbdən də öz MTS-lərində spesifik ölkələrə yox, spesifik məsələlərə diqqət yetirməyə çalışırlar, baxmayaraq ki, MTS-lər digər dövlətə xəbərdarlıq etmək üçün tərtib olunubsa, onun adı çəkilə bilər.

Üçüncüsü, **MTS xülasələrinin** verilməsi ehtiyacının **xərcləri həm insani, həm də maddi baxımdan tarazlaşdırılmalıdır.** Strateji mühitdə əhəmiyyətli dəyişikliklər meydana çıxdıqda və ya mövcud təhlükəsizlik strategiyası uyğunsuz hesab olunduqda və ya çox tez-tez yenilənirsə, bu resursları tükəndirə bilər, çünki xüsusilə yaxşı MTS siyasəti həyata keçirən rəsmilərin bu işə cəlbini tələb edir.

Dördüncüsü, MTSlər **ekspertlərin tövhələri ilə ictimai müzakirələri tarazlaşdırmalıdır.** İctimai müzakirələr mənimsənilmə üçün vacib olduğundan sənədin siyasi maraqlara xidmət etdiyi barədə düşüncə yaransa, bu onun əhəmiyyətini aradan qaldıra bilər

## Səmərəli milli təhlükəsizlik siyasətinin formalaşmasında hansı başlıca problemlər var?

• İdeya nə zaman irəli sürülməlidir
• Fikir irəli sürmə prosesinə hansı aktorlar daxil edilməlidir
• İşçi qruplardan MTS barədə tövsiyələrin gəlməsini asanlaşdıran və artıran müstəqil aparıcı orqan var?
• Milli təhlükəsizlik necə müəyyən olunur? Milli təhlükəsizliyin mövcud və ehtimal olunan gələcək problemləri hansılardır?
• Milli təhlükəsizlik üçün hansı vasitələr əldə edilib və hansı vasitələr tələb oluna bilər?
• Milli təhlükəsizlik üçün həyati əhəmiyyət kəsb edən sahələrdə şəffaflıqla gizliliyin qorunması ehtiyacı arasındakı tarazlığa MTS necə yanaşır
• MTS-ə nəzarət etmək üçün hər hansı bir nəzarət orqanı yaradılıb? Nəzarət orqanı daxildədirmi?
• MTS-i yaymaq və ictimaiyyəti onun məğzindən xəbərdar etmək üçün hansı tədbirlər görülməlidir ?

## MTS-i necə tətbiq etməli?

MTS-lər nadir hallarda konkret təhlükəsizlik problemlərinin həlli yollarını göstərir, çünki bu sənədlər hər bir gözənilməz hadisəni nəzərdə tutacaq qədər ətraflı və dəyişməz deyil. Bununla yanaşı hər bir təhlükəsizlik aktoru təsdiq olunduqdan sonra MTS- i yerinə yetirməyə görə məsuliyyət daşıyır, əlbəttə ki hər bir idarədə ətraflı qiymətləndirmə aparılır və siyasi xülasə verilir.
Onlar aşağıdakı struktur dəyişikliklərini irəli sürə bilər.

**Mövcud siyasi vasitələrin qəbulu.** Bura heyət səviyyələri üçün , ehtiyatların coğrafi bölgüsü, təchizat metodları və digər müxtəlif vasitələr aid oluna bilər. Milli müdafiə, hərbi strategiya və bu kimi hər hansı digər fəaliyyət kursu MTS-ə uyğunlaşdırılmalıdır.

**Yeni siyasi vasitələrin yaradılması.** Bura nəzarət komitələri, şöbələrarası işçi qruplar və digər mexanizmlər aiddir.

Milli səviyyədə, milli təhlükəsizlik siyasətinin həyata keçirilməsi yoluna nəzarət etmək üçün **daimi komitələrin** yaradılması ilə MTS-in tətbiqinə kömək etmək olar, baxmayaraq ki, bəziləri bunu səmərəli qərar qəbul etmə prosesinə maneə kimi qiymətləndirə bilər. Bu qruplar MTS-i mövcud imkanların və təhlükələrin qiymətləndirilməsi fonunda dəyərləndirirlər. Bəzi ölkələr bu vəzifəni Milli Təhlükəsizlik Şurası kimi bir ixtisaslaşmış orqana tapşırır; digərləri isə ad hoc şöbələrarası nəzarət qrupu tərəfindən müntəzəm görüşlərin keçirilməsini nəzərdə tutur. Yaxşı olar ki, nəzarət

orqanlarının yaradılması və fəaliyyəti MTS nəzarət komitələrində olduğu kimi fərdilik, şəffaflıq, müzakirə və razılıq prinsiplərinə riayət etsin .Bəzi nəzarət orqanları lazım bildikdə icraedici orqanlara MTS-ə  dair baxışlarını təklif edə bilər

## Nəticə: Səmərəli və demokratik MTS prinsipləri

Vəzifəsi MTS-in layihəsini vermək olan  komitə və ya orqan  aşağıdakı prinsiplərə riayət etməlidir.

**Əhatəlilik və operativlik**: Əhatəli siyasi kursun formalaşdırılması dövlət səviyyəli tərəflərin təhlükəsizliklə bağlı maraqlarının hərtərəfli ifadə edilməsinin və bu maraqların vasitələrə və imkanlara  uyğunlaşdırılmasının ən yaxşı yoludur. Qeyri-dövlət səviyyəli fikirləri də MTS araşdırmalı və əhatə etməlidir.

**Müzakirə və razılıq**: Müzakirələrin aparılması və razılıq yollarının axtarılması geniş dəstəklənən və səmərəli həyata keçirilən MTS-lərin hazırlanması üçün vacibdir

**Təhlükələrə böyük diqqət yetirilməsi :** BMT-nin Təhlükələr, Risklər və Mümkün Hallar üzrə Ali Komissiyasının Hesabatında adı çəkilən təhlükələr də daxil olmaqla təhlükələrin böyük bir qisminə diqqət yetirilməlidir: iqtisadi və sosial təhlükələr (pandemiyalar və təbii və təsadüfi xəstəliklər), dövlətlərarası münaqişələr, dövlətdaxili münaqişələr, terrorizm, kütləvi qırğın silahları, transmilli cinayətkarlıq.

**Vasitələrin açıq qiymətləndirilməsi**: MTS müəyyən olunmuş təhlükələrə uyğun olaraq, müxtəlif  dövlət orqanlarının  vəzifələrini , təşkilatlarla bağlı məsələlərdə mövcud siyasətini, hərbi qüvvələrdən istifadəni, kütləvi qırğın silahlarının yayılmasını, dövlətin təhlükəsizliyə baxışlarında demokratiyanın və iqtisadi inkişafının rolunu qiymətləndirməlidir.

**Şəffaflıq**: Hazırlanma prosesinin şəffaflığı xüsusi maraqların, ayrı-ayrı nazirlərin və ya təhlükəsizlik orqanlarının maraqlarının  son nəticədə üstünlüyünün qarşısını alır.

**Daimi nəzarət və təhlükələrin qiymətləndirilməsi**:  Daimi komitə mövcud MTS ilə inkişaf etmiş milli və beynəlxalq mühit arasındakı uyğunluğa daimi nəzarət etməlidir. Nəzarət orqanları nəzarət komitələrinin riayət etdiyi prinsiplərə riayət etməlidir

**Beynəlxalq təsəvvürlər** :Dövlətlər  bir-birindən təcrid olunaraq mövcud olmadıqları üçün, heç bir dövlət ayrıca "milli" təhlükəsizlik siyasəti hazırlaya bilməz. Dövlətin təhlükəsizliklə və ya iqtisadiyyatla bağlı  çoxmillətli təşkilatlara və ya qruplara üzvlüyünün MTS –in hazırlanmasına təsiri labüddür.

**Beynəlxalq hüquqa hörmət   :** MTS dövlətin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin şərtlərini , o cümlədən  ümumi qəbul olunmuş məcburi qanunları nəzərə almalıdır

## Əlaqədar məsələlər

• Müdafiə siyasəti
• Təhlükəsizliklə bağlı beynəlxalq öhdəliklər
• Daxili təhlükəsizlik təsisatları
• Milli maraqlar
• Hərbi idarəçilik orqanlarının strukturu
• Qeyri-hərbi nazirliklər və təhlükəsizlik sektoru
• Parlament nəzarəti
• Təhlükəsizlik sferasına aid daimi komitələr
• Fövqəladə hallar

## Əlavə məlumat

Internetdə MTS-lər:
**Avstriya:** Security and Defense Doctrine (2002).
www.am.gov.lv/en/nato/basic/4534/
**Kanada:** Securing an Open Society: The National Security Policy of Canada (2004).
www.pco-bcp.gc.ca/docs/Publications/NatSecurnat/natsecurnat_e.pdf
**Latviya:** National Security Concept (2002).
www.am.gov.lv/en/nato/basic/4534/
**İsveçrə:** Security through Cooperation: Report of the Federal Council to the Federal Assembly on the Security Policy of Switzerland (1999).
www.vbs-ddps.ch/internet/vbs/ en/home.html
**Amerika Birləşmiş Ştatları:** The National Security Strategy of the United States (2002)
www.whitehouse.gov/nsc/nss.pdf
MTS-ə malik digər ölkələrEstoniya, Litva, Polşa, Serra Lyone və Türkiyədir.
Aİ və NATO-nun da mütərəqqi təhlükəsizlik strategiyaları və ya konsepsiyaları var.

**Digər mənbələr:**

Civilian Control or Civilian Command? DCAF Conference Paper
www.dcaf.ch/publications/Working_Papers/121.pdf
Managing National Security Policy: The President and the Process. Pittsburgh: University of Pittsburgh Press

The National Security Strategy: Documenting Strategic Vision. Strategic Studies Institute (SSI) monographs, US Army War College.
www.carlisle.army.mil/ssi/pdffiles/PUB332.pdf
"A More Secure World: Our Shared Responsibility." Report of the Secretary General's High-Level Panel on Threats, Challenges, and Change.
www.un.org/secureworld/report2.pdf

Qutu:

SQDN yaddaş kitabı buraxılışı Mərkəzin Təhlükəsizlik Sektorunun İslahatı ilə bağlı İşçi Qrupunun SQDN əməkdaşları və xaricdən ekspertləri ilə birlikdə hazırlanmışdır.
SQDN Tədqiqt köməkçiləri Jonas Hagman və James Stocker bu yaddaş kitabı üçün tədqiqat aparıblar. James Stocker həm də redaktə olunmasında köməklik göstərib.
SQDN nin Təhlükəsizlik Sektoru üzrə Baş Mütəxəssisi David Law yaddaş kitabı buraxılışının redaktorudur.Digər yaddaş kitablarının www.dcaf.ch/publications/backgrounders adresindən əldə edə bilərsiniz.
Silahlı Qüvvələrə Demokratik Nəzarət üzrə Cenevrə Mərkəzi polis, kəşfiyyat orqanları, sərhəd mühafizəsi xidməti, hərbiləşdirilmiş qüvvələr və silahlı qüvvələr kimi təhlükəsizlik sferasına aid təşkilatlara demokratik və mülki nəzarəti artırmaq və gücləndirmək üçün çalışır.
Mərkəz təhlükəsizlik sferasında demokratik idarəçiliklə bağlı əsas problemləri müəyyən etməyə və onları aradan qaldırmaq üçün ən uyğun təcrübəni tapmağa çalışır.
SQDN bütün maraqlı tərəfləri, xüsusən də hökumətləri, parlamentləri, hərbi hakimiyyət orqanlarını və beynəlxalq təşkilatları məsləhət xarakterli proqramlarla və təcrübi köməklə təmin edir.
**www.dcaf.ch** səhifəmizə baş çəkin
.